# Azərbaycan Bəstəkarlar İttifaqının tarixindən:

## 1948-ci il həqiqətləri

**Məlumdur ki, II dünya müharibəsindən sonrakı illər Azərbaycan musiqisinin tarixində çox məhsuldar, zəngin və eyni zamanda kifayət qədər ziddiyyətli hadisələrlə dolu bir dövr olmuşdu. Bəstəkarlar İttifaqının təşəkkül prosesində bu dövrü, müəyyən mənada dönüş anı kimi səciyyələndirmək mümkündür. Onu şərtləndirən, sürətləndirən və qaçılmaz edən başlıca amil isə 1948-ci ildə SSRİ-nin musiqi məkanını silkələtmiş və indiyə qədər də nəticələri tarixi musiqişünaslığımızda bütün təfsilatı və mahiyyəti ilə açıqlanmayan məşhur partiya qərarları oldu.**

*Təxminən 60 il bundan qabaqkı hadisələrə hər cür ideoloji-siyasi çərçivədən uzaq tərzdə, obyektiv şərh etmək cəhdlərinə ilk dəfə musiqişünas, professor F.Əliyevanın məqaləsində rast gəlirik. Müəllif bu barədə yazır: "Müharibədən sonrakı dövr 2 siyasi qərarın ab-havası ilə müəyyənləşmişdi. Musiqi sahəsində möhtəşəm mənəvi repressiyaya start verən 1948-ci il qərarı və Stalinin ölümündən sonra Sovet İttifaqı KP-nın XX qurultayında qəbul edilmiş şəxsiyyətə pərəstiş dövrünün nəticələrini ifşa edən 1958-ci il qərarı. Birinci qərar bilavasitə bəstəkar yaradıcılığına güclü təsir göstərmişdir. Xəlqilik və milliliyin konkret "dozalarla" ölçülməsi, proqramlığın az qala amiranə tərzdə "tövsiyə" edilməsi, klassik rus musiqisinin prinsiplərinə istinad - heç kəsin poza bilməyəcəyi və yaradıcılıq axtarışlarının həddini müəyyənləşdirən direktiv mahiyyətli göstərişlər oldu. Təmiz instrumental musiqi, XX əsrin yeni ifadə vasitələri, üslub təmayülləri, yeni bəstəkar ənənələri yasaq elan edilir. Azərbaycan bəstəkarlarının həyatında, yaradıcılığında bu qərarın izləri aydın görünür".1 Bu izlər Bəstəkarlar İttifaqının tarixində də çox qabarıq və gözəçarpandır və onların mahiyyətinə varmaq üçün hadisələrin baş vermə səbəblərini araşdırmaq məqsədəuyğundur.*

*1947-ci ildə SSRİ məkanında Oktyabr inqilabının 30 illik yubileyi təntənə ilə qeyd olundu və bununla bağlı həyatın bütün sahələrində otuz illik hesabat kampaniyaları geniş vüsət aldı. Qərara alındı ki, sovet bəstəkarları da özlərinin I qurultayına toplaşıb bu illər ərzində görülən işlərə yekun vursunlar. SSRİ Bəstəkarlar İttifaqı təşkilat komitəsinin Azərbaycan Bəstəkarlar İttifaqına göndərdiyi 1947-ci il 19 noyabr tarixli məktubundan bəlli olur ki, 1948-ci ilin fevralında Moskvada bəstəkarların Ümumittifaq I Qurultayının çağırılması nəzərdə tutulur.2 Məktubda qurultayın gündəliyi və iştirakçıların ümumi sayı (500 nəfər) xəbər verilməklə yanaşı, həm də göstəriş verilirdi ki, hər bir yerli təşkilat dekabr-yanvar aylarında öz Plenumunu keçirməli və burada bəstəkar və musiqişünasların 30 illik fəaliyyətinə yekun vurulmalıdır. Bu məktuba cavab olaraq, Azərbaycan Bəstəkarlar İttifaqının sədr müavini Qara Qarayev (Üzeyir Hacıbəyov ağır xəstə olduğuna görə rəhbərlik funksiyasını məhz o həyata keçirirdi) SSRİ Bəstəkarlar İttifaqı təşkilat komitəsinin sədri R.M.Qliyerə ünvanladığı teleqramda bildirir ki, respublika təşkilatı 1948-ci il fevralın 1-6-da Plenum və Azərbaycan musiqisinə baxış-konsertlərin keçirilməsini planlaşdırıb. Lakin birdən-birə bu planlar pozulur və Ümumittifaq qurultay təxirə salınır: Sov. İKP MK-də növbəti kampaniya "cücərməyə" başlayır. Lakin bu dəfə yubiley deyil, yeni ifşa kampaniyası hazırlanır.*

*II dünya müharibəsinin sona çatması və insanların tədricən dinc həyata qayıtması cəmiyyətdəki ümumi gərginliyi aşağı salsa da, avtoritar sovet rejiminin "daimi nəzarət" və bunun məntiqi davamı olan repressiya siyasəti səngimək bilmirdi. Kommunist-bolşevik təfəkkürü üçün hər zaman aktual olan xaricdən və daxildən düşmən axtarışları, ideoloji təcavüzün qarşısını vaxtında və birdəfəlik almaq istəyi vaxtaşırı çıxan müxtəlif partiya qərarlarında bütün çılpaqlığı və qəddarlığı ilə əks olunurdu. 1946-48-ci illər ərzində ÜİK (b)P MK-sı dörd belə qərar vermişdi. "Zvezda" və "Leninqrad" məcmuələri, "Böyük həyat" kinofilmi, "Dram teatrlarının repertuarı və onu yaxşılaşdırmaq haqqında" qərarlar ziyalı təbəqəni silkələməyə yönəlmişdisə də, bu qəbildən olub, tarixin yaddaşına mənəvi terrorun parlaq nümunəsi kimi həkk edilən ən hay-küylü və qalmaqallı qərar - MK-nın 1948-ci il 10 fevral tarixli "Vano Muradelinin "Böyük dostluq" operası haqqında" qərarı oldu. Proletar diktaturasının yaradıcı ziyalıları yerində "otuzdurub", onlara ilk növbədə xalqın nökəri olduqlarını anlatmaq siyasəti ən kəskin formada musiqiçilərin və ilk növbədə bəstəkarların başında çatladı. Bu kampaniyaya təkanı və bəhanəni isə əvvəlcə ziyalıların, sonra isə yüzlərlə kolxozçu, manqa başçısı və zavod fəhlələrinin dilindən hallandıran başıbəlalı bir opera verdi.*

*1947-ci ildə Oktyabr inqilabının XXX illiyi münasibətilə Moskvada, Stalin siyasi elitasının xüsusi diqqət və himayəsi altında olan SSRİ Böyük teatrının səhnəsində bəstəkar Vano Muradelinin "Böyük dostluq" operası tamaşaya qoyuldu və gözlənilən böyük uğur əvəzinə opera bu elitanın və ilk növbədə Stalinin çox mənfi reaksiyası ilə üzləşdi. Bəzi tədqiqatçıların fikrincə, buna səbəb operanın "sönük və anlaşılmayan musiqisi"ndən çox, məzmunda buraxılmış ciddi "siyasi səhv" olmuşdu: "Operadan düzgün olmayan belə bir təsəvvür yaranır ki, guya Qafqazın gürcülər və osetinlər kimi xalqları 1918-ci illərdə rus xalqı ilə düşmənçilik edirmişlər: halbuki bu iddia tarixən saxtadır, çünki o zaman Şimali Qafqazda xalqlar arasında dostluq yaradılmasına inquşlar və çeçenlər mane olmuşlar". Yeri gəlmişkən xatırladaq ki, II dünya müharibəsində bütöv xalqlar - çeçen və inquşlar kütləvi repressiya və sürgünə məruz qalmışdılar. Məlum qərarda bu səbəb ikinci dərəcəli kimi göstərilsə də, məhz bu amilin Stalinin əsas qəzəb hədəfinə çevrildiyi güman edilir. V.Muradelinin buraxdığı "siyasi səhvdən" isə sovet mədəniyyətinin ideoloqları ilk növbədə yenilikçi, novator sənətkarları əzmək, əymək və bir daha sarsıtmaq üçün məharətlə istifadə etdilər. Bu münasibətlə əvvəlcə ÜİK(b)P MK-də musiqi xadimlərinin 3 gün davam edən böyük müşavirəsi çağırıldı. Buraya 70-dən çox bəstəkar,*

musiqişünas, dirijor və ifaçılar dəvət edilmişdi.

Sovet mədəniyyətinin o dövrdə baş nəzarətçisi və ideoloqu olan Jdanov böyük sənətkarları qarşısına qoyub, onlara "əsl musiqini necə yazmaq" barədə "dərs" keçmişdi. S.Prokofyev, D.Şostakoviç, N.Myaskovski kimi bəstəkarları melodiyadan, polifoniyadan imtina edib, "xırda burjua novatorluğuna" yuvarlanmaqda, "solçu eybəcərliyi" tərənnüm etməkdə günahlandırmışdı. Özü də bütün bu ittihamlar təbii ki, xalqın adından dilə gətirilirdi. Son tezis isə belə idi: "Dahiyanə musiqi sadə olmalıdır və o, geniş xalq kütlələrinə nə qədər asan çatırsa, bir o qədər dahiyanədir. Xalqın başa düşmədiyi musiqi xalqa lazım deyil." Jdanovun "musiqi estetikası" kimi tarixə düşmüş bu "pozitiv" proqram MK-nın 1948-ci il fevralın 10-da qəbul etdiyi "V.Muradelinin "Böyük dostluq" operası haqqında" qərarında özünün tam və dolğun əksini tapdı.

Qərarda qüsurlu formalist istiqamətdə yazan bəstəkarların ifşası ilə yanaşı, habelə onu yayan, tərbiyə və təbliğ edən təşkilatlar da amansız tənqidə məruz qaldı. Moskva Konservatoriyası ilə bahəm bu siyahıda SSRİ Bəstəkarlar İttifaqının Təşkilat Komitəsi də xüsusi hallandırıldı: "Sovet bəstəkarları İttifaqının təşkilat komitəsi bir dəstə formalist bəstəkarın əlində alətə çevrilmiş, formalist təhriflərin yayılması üçün əsas ocaq olmuşdur. Onun rəhbərləri və onların başına toplaşan musiqişünaslar layiq olmayan anti-realist və modernist əsərləri tərifləyir, realist mahiyyətdə olub klassik irsi davam və inkişaf etdirməyə çalışan əsərləri isə ikinci dərəcəli əsər elan edirlər. Belə əsərlər nəzərə çarpdırılmır və gözümçıxdıya salınır. Musiqi sahəsində "yenilik yaratdıqları" və "böyük inqilab əmələ gətirdikləri" ilə lovğalanan bəstəkarlar təşkilat komitəsində fəaliyyət göstərərkən çox geridə qalmış və üfunət saçan mühafizəkarlığın tərəfdarı kimi çıxış edərək ən azacıq tənqidə belə təkəbbürlə dözmək istəmirlər." 5 Bu ittihamların nəticəsi özünü çox gözlətmədi: Moskva Konservatoriyasının rektoru Şebalin və burada pedaqoji fəaliyyətlə məşğul olan Şostakoviç işdən uzaqlaşdırıldı. SSRİ Bəstəkarlar İttifaqı Təşkilat Komitəsinin sədr müavinləri və bəzi üzvləri də öz vəzifələrindən kənarlaşdırıldılar. Azərbaycan Bəstəkarlar İttifaqına 1948-ci il yanvarın 29-da artıq T.N.Xrennikovun imzası ilə göndərilmiş təcili teleqramda deyilirdi ki, "bizim göstərişimizə qədər öz plenumunuzu təxirə salın". İki gündən sonra vurulmuş teleqramda isə Ümumittifaq Qurultayın qeyri-müəyyən vaxta keçirildiyi bildirilirdi.6 Bu təxirəsalmaların səbəbi aydın idi: aidiyyatlı təşkilatlar yeni partiya qərarına uyğun öz işlərini "sahmana" salmalı idilər. Hadisələrin oxşar ssenarisi ittifaq respublikalarında, o cümlədən Bakıda da təkrar olundu.

1948-ci il fevralın 17-də (yəni qərardan bir həftə sonra) Azərbaycan SSR Nazirlər Soveti yanında İncəsənət İşləri İdarəsində bəstəkar, musiqi tənqidçiləri, incəsənət işçiləri və ifaçıların iştirakı ilə geniş yığıncaq oldu. Bununla bağlı "Kommunist" qəzetinin 18 fevral 1948-ci il tarixli nömrəsindəki məlumatda deyilir ki, "partiyamızın bu qərarı xalqın səsi olub, geniş sovet dinləyiciləri kütləsinin fikirlərini və arzularını ifadə edir. Sovet musiqisində olan və ÜİK (b) P MK qərarında kəskin tənqid edilən nöqsanlar bizim Azərbaycan bəstəkarlarına da aiddir". Yığıncaqda Qara Qarayev, Cövdət Hacıyev, Fikrət Əmirov çıxış edib qərarla tam həmrəy olduqlarını bildirdikdən sonra, digər iştirakçıların dilindən Azərbaycanda formalizm istiqamətinin ilk nümayəndələrinin adı çəkilir - Q.Qarayev və C.Hacıyev: "Bu bəstəkarların əsərləri xalq tərəfindən başa düşülmür, geniş dinləyici kütləsinə çatmır." 7 Verilən qiymətə Zülfüqar Hacıbəyov da qoşulur: "Bəstəkar Prokofyev və Şostakoviçin zərərli təsiri altına düşən, onların yaradıcılığını "yüksək musiqi nümunəsi" hesab edən, öz əsərlərini onlara bənzətmək üçün hər bir orijinal əsərdə əsas motiv ola biləcək muğamat və mahnılardan tamamilə kənar çıxan bəstəkarlarımız vardır. Gənc bəstəkarlar Q.Qarayev, C.Hacıyev və b. belə zərərli təsirlər altına düşmüş və bunun nəticəsində onların bir sıra əsərləri kütlənin tələbini ödəyə bilmir". Digər çıxışçılar - Bülbül, İ.Hidayətzadə, Ə.Bədəlbəyli, M.Hüseynov, X.Ağayeva, M.Vaynşteyn ümumi tənqidi fikirlər söyləsələr də, konkret ad çəkməkdən yayınırlar. Lakin artıq iki gün sonra, yəni fevralın 19-da Azradiokomitədə və Azərbaycan Dövlət Konservatoriyasında çağırılmış geniş yığıncaqlarda "formalistlərin" siyahısına yeni adlar əlavə olunur: Fikrət Əmirov, Əşrəf Abbasov, Soltan Hacıbəyov, Nina Karnitskaya, Süzanna Şeyn, Vladimir Danilov, Andrey Babayev, Ağabacı Rzayeva, Ədilə Hüseynzadə, Hökümə Nəcəfova, Adilgəray Məmmədbəyli. Siyahıdan görünür ki, burada nəinki Şostakoviç ənənələrinin davamçıları, habelə sırf milli tərzdə yazan gənc bəstəkarlar da vardır. Formalist əsərlərin siyahısı da dəqiqləşdirilməyə başlayır: Q.Qarayevin I simfoniyası, C.Hacıyevin III simfoniyası, F.Əmirovun "Nizami" simfoniyası, İkiqat konserti, S.Hacıbəyovun I simfoniyası buraya daxil edildilər.8 Daha sonra fevralın 20-də Azərbaycan Sovet Yazıçılar İttifaqının Natəvan adına klubunda yazıçılar, bəstəkarlar, ədəbiyyat və musiqiçilərlə birlikdə geniş yığıncaq oldu və Səməd Vurğun, Rəsul Rza, Mehdi Hüseyn, Süleyman Rüstəm, Yusif Şirvan, Məmməd Arif, Zeynal Xəlilin çıxışlarında artıq "aşkar olunmuş" formalistlərin siyahısına Niyazinin adı da əlavə edildi. Onun "Xosrov və Şirin" operası "qulağı tıqqıldadan", xalqdan uzaq və yabançı bir əsər kimi səciyyələndirildi. Vurğulandı ki, "Niyazi və başqa bəstəkarlarımızın yaradıcılığında kor-koranə təqlidçilik vardır. Onlar hətta bəzi el havalarını heç bir yaradıcılıq süzgəcindən keçirmədən öz əsərləri kimi qələmə verirlər. Musiqi tənqidimizin zəifliyi bəstəkarlarımızın inkişafına mane olur. Tənqidçilərimiz bir dəstə bəstəkarı quru tərif etməklə məşğul olub, onları zərərli yola aparırlar". Beləliklə, partiyanın "müdrik qərarı" ilə həmrəylik kampaniyasından belə aydın olurdu ki, həmin dövrdə Azərbaycanda, Ü.Hacıbəyov istisna olmaqla, "formalizm" xəstəliyinə yoluxmayan bəstəkar qalmamışdı və onları düz yola salmaq partiya və hökumətin musiqi sahəsində birinci dərəcəli vəzifəsi idi. Müzakirə kampaniyasının kulminasiyası isə AK (b) P MK-da şəxsən M.Bağırovun iştirakı ilə keçən musiqi xadimlərinin böyük müşavirəsi oldu və onun nəticələri Bəstəkarlar İttifaqının 1948-ci il martın 25-də açılan və 3 gün davam edən Plenumunda, sonda isə AK(b)P MK-nın 30 mart tarixli "Azərbaycan SSR-də musiqi yaradıcılığının və bəstəkar kadrların hazırlanmasının vəziyyəti haqqında" qərarında öz əksini tapdı. Bəstəkarlar İttifaqının Plenumunda müzakirəyə çıxarılan əsas və həlledici məqamlar Qara Qarayevin bir saatdan çox davam edən müfəssəl məruzəsində açıqlandı. Bu məruzə işıqlandırılan mövzular, toxunulan məsələlərin xarakter və məzmununa görə bir neçə hissədən ibarət idi. Burada Azərbaycanda peşəkar bəstəkar yaradıcılığının yaranması və inkişafı haqqında tarixi məlumatlar, habelə 1944-cü ildən 1947-ci ilə kimi Azərbaycan Bəstəkarlar İttifaqının işi haqqında hesabat toplanmış, bunun ardınca respublikada formalist istiqamətinin daşıyıcıları - Q.Qarayev, C.Hacıyev, F.Əmirov, Niyazi, S.Hacıbəyovun "xalqa zidd" əsərləri kəskin tənqid olunmuşdu. Lakin eyni zamanda, elə həmin qərara arxalanaraq Q.Qarayev onun fikrincə "bəsit" xalq ruhunda yazan bəstəkarları da kəskin tənqid atəşinə tutur. Bu əsnada o, gənc bəstəkarların bir qrupu - Süleyman Ələsgərov, Mithət Əhmədov, Əşrəf Abbasov və Şəfiqə Axundova, habelə Ədilə Hüseynzadə, Ağabacı Rzayeva, Adilgəray Məmmədbəylinin adlarını çəkir. Onların yaradıcılığını səciyyələndirən Q.Qarayev deyir: "Bu yoldaşlar Azərbaycan muğamlarının əsaslarını yaxşı mənimsəyiblər ki, bu da onların yaradıcılığının cazibədar cəhətidir. Lakin musiqi sənətinə baxışlarındakı səhvlər istedadlarının tam açılmasına imkan vermir, hazırkı vəziyyətləri isə gələcək uğurlu inkişafa şübhə oyadır. ‹……› Xalq musiqisinin qanun və normalarına doqmatik yanaşaraq, bu bəstəkarlar əksər halda formaca primitiv və məzmunca yeknəsək əsərlər yaratmışlar." "

Məruzədə səslənən bütün bu fikirlər, göstərilən nöqsanlar, bunlara rəvac və dəstək verən təşkilatlar (Azərbaycan Dövlət Konservatoriyası, Bəstəkarlar İttifaqı, İncəsənət İşləri İdarəsi), habelə səhvlərin aradan qaldırılmaq yolları Plenumdan dərhal sonra, yə'ni martın 30-da verilmiş AK(b)P MK-nın qərarında eynilə əks olundu. Qərarın müddəalarına əsasən ilk növbədə İttifaqın tərkibi nəzərdən keçirildi və "bəstəkar, musiqişünas, tənqidçi adını doğrultmayan" şəxslər, habelə təhsilini başa vurmamış tələbələr ittifaqın üzvlüyündən xaric edildilər. Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin 1948-ci il 30 mart, 13 aprel və 9 may tarixli qərarlarına əsasən 17 nəfər İttifaqdan çıxarıldı. Bu sırada birinci yerdə "yaradıcılıq fəaliyyəti əsas etibarilə xarici ideyasız musiqi üslubunda mahnı və caz bəstələrindən ibarət olan" Tofiq Quliyevin adı durur.12 Xaric olunanların bir qismi - Qəmbər Hüseynli, Adilgəray Məmmədbəyli, Ağakərim Əliyev, Abram Kabakov, Əyyub Şıxzamanov, Ağası Məşədibəyov, Cəvahir Həsənova, Yevgeniya Perevertaylo bədii və peşəkarlıq baxımından aşağı səviyyəli musiqi əsərləri yazdıqlarına görə, qalan 10 nəfər isə tələbə olduqları üçün İttifaqdan çıxarılır. Sonuncular sırasında Elmira Nəzirova, Hökümə Nəcəfova, Hacı Xanməmmədov, Asya Sultanova da vardır. Eyni zamanda, Azərbaycan Bəstəkarlar İttifaqı Nazirlər Kabineti qarşısında zəmanətlə çıxış edərək, özünü yaxşı tərəfdən göstərmiş Konservatoriya tələbələrinin bir qisminin istisna şəklində İttifaqın tərkibində qalmasına icazə istəmiş və bunun nəticəsində F.Əmirov (IV kurs tələbəsi), S.Ələsgərov (V kurs), A.Rzayeva (I kurs), Ş.Axundova (III kurs), Ə.Abbasov (V kurs), M.Əhmədov (IV kurs), C.Cahangirov (II kurs), Ə.Hüseynzadə (I kurs) İttifaqın üzvlüyündə saxlanmışdılar.

1948-49-cu tədris ilinin sonunda isə qərarın göstərişlərinə müvafiq olaraq Azərbaycan Dövlət Konservatoriyasında vaxtilə Ü.Hacıbəyovun açdığı və milli kadrları bəstəkarlığa həvəsləndirmək və cəlb etmək yönümündə əvəzsiz rol oynamış, lakin eyni zamanda da, qərarda deyildiyi kimi "ciddi təhsilə və başqa fənlərə etinasız münasibət formalaşdırmış" Azərbaycan yaradıcılıq şöbəsi bağlandı və şö'bənin tələbələri hazırlıq dərəcəsindən asılı olaraq konservatoriyanın müvafiq kurslarına keçirildilər. Onların içərisində Ə.Hüseynzadə və A.Rzayevanın da adlarına rast gəlirik.

1948-ci il qərarının ən diqqətəlayiq göstərişlərindən biri də Azərbaycan Dövlət Konservatoriyasında bəstəkar və nəzəriyyəçilər üçün xüsusi kurs kimi, ifaçılar üçün isə ümumi kurs şəklində "Azərbaycan xalq musiqisinin əsasları" fənninin tədrisini qaydaya salmaq, habelə bu sahədə elmi-tədqiqat və təhsil-metodika işlərini genişləndirmək məqsədilə Azərbaycan musiqisinin tarixi və nəzəriyyəsi kafedrasının yaradılması idi. Qərarda ayrıca bənd kimi musiqi məktəblərinin şagird və tələbələri üçün musiqi nəzəriyyəsinə və tarixinə dair Azərbaycan dilində tədris vəsaitinin yaradılması da ön plana çəkilmişdi. Azərbaycan musiqisinin və musiqi elminin inkişafı baxımından bu qərarın yuxarıdakı bəndləri mühüm əhəmiyyətə malik idi.

Azərbaycanın musiqi məkanında 1948-ci ildə baş verən yenidənqurma proseslərinin nə dərəcədə ağrılı və sarsıntılı olduğunu təsəvvürə gətirmək çətin deyil. Baş verənlərə Azərbaycan Dövlət Konservatoriyasının rektoru və Bəstəkarlar İttifaqının sədri - o zaman ağır xəstəlikdən və düzgün olmayan müalicədən çox əziyyət çəkən və bütün bu proseslərdən kənarlaşan Ü.Hacıbəyovun münasibətinin birmənalı olmadığını da anlamamaq sadəlövhlük olardı. Lakin 60 illik vaxt məsafəsindən araşdırılan dövrün gerçəkliklərinə nüfuz edərkən, bir daha o qənaətə gəlirik ki, nəzərə çarpan əyintilərə və haqsız, bə'zən isə absurd ittihamlara baxmayaraq, bəstəkar kadrların hazırlanması və inkişafı yönümündə aparılan 1948-ci il islahatları (nə qədər ağrılı olub, qaba tərzdə həyata keçirilsə belə) labüd və zəruri idi.

Azərbaycan Bəstəkarlar İttifaqı, ilk növbədə Qarayev və onun tərəfdarları, respublika rəhbərliyinin dəstəyinə arxalanaraq, ÜİK (b)P MK-nın 10 fevral 1948-ci il tarixli qərarından, bundan çox ziyan çəkmiş Moskva və digər regionlardan fərqli olaraq (elə onu demək kifayətdir ki, D.Şostakoviç kimi nəhəng bir sima Moskva Konservatoriyasında apardığı pedaqoji işdən kənarlaşdırıldı), musiqimizin ən aktual problemlərini həll etmək üçün maksimum istifadə etdilər. Azərbaycanda çıxan qərarın musiqimizin inkişafında şəksiz rol oynamış bir sıra göstərişləri, respublikanın ali musiqi ocağına Üzeyir bəyin vəfatından sonra Qara Qarayevin rektor təyin olunması, Q.Qarayev və C.Hacıyevin bəstəkarlıq ixtisasını tədris edən pedaqoqlar kimi artan nüfuzu bunun çox bariz göstəricisi oldu.

Başda yeni nəslin parlaq, istedadlı, yüksək erudisiyalı, özündə liderə xas bütün lazımi keyfiyyətləri cəmləşdirən Qara Qarayev olmaqla Azərbaycan musiqisi məhz Ü.Hacıbəyovun milli bəstəkarlıq məktəbi yaratmaq strategiyasını davam etdirib, onu yeni səviyyəyə - müasir dövrün peşəkarlıq və sənətkarlıq tələbləri səviyyəsinə qaldırmaq istiqamətində qətiyyətli və cəsarətli addım atmış oldu.

**Lalə Hüseynova**